“Sahibkarlıq fəaliyyəti məqsədləri üçün qeyri-rezident kredit təşkilatlarında və ya qeyri-rezident bank əməliyyatı aparan şəxslərdə açılmış hesablar barədə məlumatın ləğv edilməsi”


elektron xidmətinin

İstifadəçi təlimatı

Sahibkarlıq fəaliyyəti məqsədləri üçün qeyri-rezident ödəniş xidməti təchizatçılarında açılmış hesablar barədə məlumatın ləğv edilməsi üzrə məlumatın Dövlət Vergi Xidmətinə təqdim edilməsi məqsədilə **“Sahibkarlıq fəaliyyəti məqsədləri üçün qeyri-rezident kredit təşkilatlarında və ya qeyri-rezident bank əməliyyatı aparan şəxslərdə açılmış hesablar barədə məlumatın ləğv edilməsi”** elektron xidməti üzrə müraciət ərizəsinin göndərilməsi üçün Dövlət Vergi Xidmətinin İnternet Vergi İdarəsinə (https://new.e-taxes.gov.az/etaxes/) giriş edib, aşağıda qeyd olunan identifikasiya və yoxlama vasitələrindən istifadə etməklə elektron kabinetə daxil olmaq lazımdır:


- Asan İmza;
- SİMA Token;
- SİMA imza.

Növbəti mərhələdə açılan yeni pəncərədə **“Ərizələr”** modulu seçilir.




Sonra “Sahibkarlıq fəaliyyəti məqsədləri üçün qeyri-rezident kredit təşkilatlarında və ya qeyri-rezident bank əməliyyatı aparan şəxslərdə açılmış hesablar barədə məlumatın ləğv edilməsi”


elektron xidməti üzrə müraciət ərizəsini təqdim etmək üçün “Yeni ərizə” xanasına ərizənin adı daxil edilir. Axtarış nəticəsində ekranda göstərilən müvafiq ərizə forması seçilir və yaxud "Hamısına bax" düyməsi vasitəsilə açılan pəncərədən də müvafiq ərizə forması seçilə bilər.




Əgər ərizə forması daha əvvəl doldurularaq qaralama kimi saxlanılıbsa, açılan pəncərədə həmin qaralama ərizə formaları göstərilir və onlardan birini seçmək imkanı yaradılır. Əvvəllər qaralama kimi saxlanılmış ərizə forması üzrə davam etmək istədikdə, müvafiq ərizə forması seçilərək aktivləşən “Davam et” düyməsi sıxılır. Bu zaman yeni pəncərədə əvvəl doldurulmuş ərizə forması açılır və ona düzəliş etmək mümkün olur.




Yeni ərizə forması yaratmaq istənildikdə isə, **“Yeni ərizə yarat”** düyməsi sıxılır.




Açılmış ərizə formasında “Siyahıya qayıt” düyməsi sıxıldıqda açılan pəncərədə “İmtina” düyməsi seçilməklə ərizə formasının doldurulmasına qaldığı yerdən davam etmək, “Əsas səhifəyə qayıt” seçilməklə “Ərizələr” moduluna qayıtmaq, “Bəli, yadda saxlanılsın” düyməsi seçilməklə isə yaradılmış ərizə formasını yadda saxlamaq mümkündür.





“Ümumi müddəalar” bölməsi

Ərizə formasında “Vergi orqanı”, “Vergi ödəyicisi” və “Rəhbər” barədə məlumatlar avtomatik əks olunur.




“Sahibkarlıq fəaliyyəti məqsədləri üçün qeyri-rezident kredit təşkilatlarında və ya qeyri-rezident bank əməliyyatı aparan şəxslərdə açılmış hesablar barədə məlumatın ləğv edilməsi” bölməsi

Bu bölmədə qeyri-rezident kredit təşkilatında (qeyri-rezident bankda) açılmış hesablar barədə məlumatlar əks olunur. Hesabın ləğvi ilə bağlı məlumatın vergi orqanına təqdim edilməsi üçün müvafiq hesab üzrə “Əməliyyatlar” sütununda üç nöqtə (…) işarəsi, daha sonra “Ləğv et” seçimi edilir.



Növbəti mərhələdə açılan ekranda “Hesabın bağlanma tarixi” sahəsinə müvafiq tarix daxil edilir və “Yenilə” düyməsi seçilir.




Daxil edilmiş tarix yeniləndikdən sonra qeyri-rezident kredit təşkilatında (qeyri-rezident bankda) açılmış hesablar barədə məlumatların əks olunduğu bölmədə “Hesabın bağlanma tarixi” sütununda göstərilir.


Sahibkarlıq fəaliyyəti məqsədləri üçün qeyri-rezident kredit təşkilatlarında və ya qeyri-rezident bank əməliyyatı aparan şəxslərdə açılmış hesablar barədə məlumatın ləğv edilməsi

№	Qeyri-rezident kredit təşkilatı və ya qeyri-rezident bank	Ölkə	Hesabın növü	Valyutanın kodu	Hesabın nömrəsi	Hesabın açılma tarixi	Hesabın bağlanma tarixi	Əməliyyatlar
1	DEUTSCHE BANK TRUST COMPANY AMERICAS	Akuka Adası (Yeni Zelandiya)	Cari subhesablar	BYR - Belarus rublu	41651561	05.02.2025	01.10.2026	...
2	DEUTSCHE BANK TRUST COMPANY AMERICAS	Albaniya Respublikası	Cari subhesablar	USD - ABŞ dolları	0020230	05.02.2025	-	...
3	PAREX BANK. LATVIA	Anguilla	Müxbir hesablar	AZN - Azərbaycan manatı	AZER1212122121212	24.09.2026	-	...
4	ABU DHABI COMMERCIAL BANK	-	Ssuda hesablar	GEL - Gürcüstan larisi	2343333333333333333	22.06.2023	-	...
5	mirmurad bank	Aomın	Cari hesablar	EUR - Avro	MIRMURADBANK123	22.12.2023	-	...


Daha sonra ərizənin göndərilməsi üçün aktivləşən “İmzala və göndər” düyməsi, qaralamada saxlanılması və daha sonra göndərilməsi üçün “Qaralamada saxla və çıx” düyməsi sıxılır.




“İmzala və göndər” düyməsi sıxıldıqdan sonra müvafiq ərizə forması imzalanaraq göndərilə və ya bu əməliyyatdan imtina edilə bilər.




“İmzala və göndər” düyməsi sıxıldıqda açılan pəncərədə “İmtina” düyməsi seçildikdə yenidən əvvəlki pəncərəyə (ərizə formasının doldurulması pəncərəsinə) geri qayıdılır.




“İmtina” düyməsini seçildikdən sonra ekranda əks olunana “Sil” düyməsini sıxmaqla ərizə forması silinə və ya əksinə bu əməliyyatdan imtina edilə bilər.






Ərizə imzalanaraq göndərildikdən sonra yeni pəncərədə istifadəçi tərəfindən doldurulmuş məlumatlara uyğun ərizə forması və müvafiq ərizənin göndərilməsi barədə “Bildiriş” əks olunur. Həmin pəncərədə **“Çap”** düyməsi vasitəsi ilə ərizə çap edilə, **“Endir”** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər. **“Bağla”** düyməsi isə pəncərəni bağlamaq üçün nəzərdə tutulmuşdur.



İstifadəçi tərəfindən göndərilən “Sahibkarlıq fəaliyyəti məqsədləri üçün qeyri-rezident kredit təşkilatlarında və ya qeyri-rezident bank əməliyyatı aparan şəxslərdə açılmış hesablar barədə məlumatın ləğv edilməsi” ərizəsi “Göndərilənlər” qovluğunda əks olunur və bu hissədə ərizənin statusu barədə məlumat qeyd olunur.



Eyni zamanda bu hissədən də istifadəçi tərəfindən **“Çap”** düyməsi vasitəsi ilə ərizə çap edilə, **“Endir”** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər.

